# "Rəngli duyğular" adlı yaradıcılıq sərgisi keçirilib



İyunun 13-də Rəssamlar İttifaqı Vəcihə Səmədova adına sərgi salonunda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssam müəllimlərinin "Rəngli duyğular" adlı yaradıcılıq sərgisinin açılış mərasimi keçirilib.

Layihənin əsas məqsədi ADMİU-nun rəssam müəllimlərinin əsərlərini geniş tamaşaçı auditoriyasına təqdim etmək, istedadlı və yaradıcı gəncləri dəyərli sənət nümunələri ilə yaxından tanış edib, gələcək inkişaflarına zəmin yaratmaq, müxtəlif texnika və üsullarda işləyən tanınmış rəssamları bir araya gətirərək bütöv bir ekspozisiyada birləşdirməkdir.

Layihənin müəllifi və rəhbəri Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Türkan Abbaslı bildirib ki, rəssamlar yaratdıqları əsərlərdə əsasən öz duyğularını əks etdirirlər. Məhz elə buna görə də sənətkar rəssamların əsərləri bu qədər fərqli və təkrarsızdır. Biz də bunu əlimizdə əsas tutaraq sərgimizi "Rəngli duyğular" adlandırdıq, çünki hər bir əsər rəssamın rənglərə çevirdiyi duyğu və hissləridir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Fərəh Əliyeva, tanınmış rəssamlardan Arif Əziz, Ağəli İbrahimov, Xanlar Əhmədov, Həmzə Abdullayev, Aytən Rzaquliyeva və başqalarının iştirak etdikləri sərgidə rəssamların bir sıra konsepsiyalarda işlənmiş və müxtəlif təsviri sənət növlərində olan əsərləri nümayiş olunub.

**Nərmin QARALOVA,**
*Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*